“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2019, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2019, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2019, № 1

**UOT 82 (091)**

**NURLANA ƏLİYEVA**
“Naxçıvan” Universiteti
n.eliyeva@nu.edu.az

# CƏLİL MƏMMƏDQULUZADƏ VƏ NAXÇIVANLI MÜASİRLƏRİ

*C.Məmmədqulizadənin dünyagörüşünün formalaşmasında ədəbi mühitin və müasirlərin müstəsna, xüsusi əhəmiyyəti vardır. Məqalədə böyük ədib Cəlil Məmmədquluzadə və müasirlərindən söhbət açılmış, onların hər biri haqqında faktlar və məlumatlar verilmişdir. Qeyd olunmuşdur ki, Azərbaycan ədəbiyyatı və mədəniyyətində C.Məmmədquluzadə və müasirləri milli maarifçilik hərəkatının yaradıcıları və fəal iştirakçıları kimi çıxış etmişlər. O, bu yolda tək olmamış, müasirləri ilə ictimai və ədəbi-mədəni mühitin dirçəlişində əsas rol oynamışlar. Cəlil Məmmədquluzadə və müasirləri ədəbi mühitdə maarifçiliyi müstəqil hərəkat səviyyəsinə qaldırmışlar. Qələmə alınan məqalə Mirzə Cəlilin müasirləri ilə birlikdə ədəbiyyatımız və mədəniyyətimizdəki rolundan bəhs olunur.*

**Açar sözlər:** *C.Məmmədqulizadə, müasir, mühit, maarifçilik, teatr, tragikomediya, məcmuə*

Azərbaycanda müxtəlif tarixi dövrlərdə yaşayan ədəbi simalar həm də dövrün ədəbi mühitini təmsil edən şəxsiyyətlər kimi bacardığı dərəcədə öz qələmləri ilə xalqımızın milli-mənəvi, ədəbi-mədəni və sosial baxımdan inkişafına xidmət etmişlər. Ayrı-ayrı tarixi dövrlərin ədəbi mühitini təşkil edənlər kəmiyyət baxımından fərqlənmiş və dövrün özəl əlamətlərini ədəbi-bədii əsərlərində əks etdirərək həm milli mənəviyyatımızı işıqlandırmış, həm də ulu bir xalqın ədəbiyyat və sənətini yaşatmışlar.

Sözsüz ki, Azərbaycanın ayrı-ayrı bölgələrində ədəbi mühitlərin məhsulu olan özəlliklər, ənənəvi cəhətlər ümumi ədəbi mühit və fikrin formalaşmasında mühüm rol oynayır. “Milli ədəbiyyatın inkişafında ədəbi mühitlərin rolunun əhəmiyyəti dənizləri əmələ gətirməkdə böyük çayların mövcud olmasının zəruriliyinə bərabərdir... Azərbaycanda maarifçilik hərəkatının, milli teatrın, elmin və mətbuatın inkişafında Naxçıvan mühitinin rolunu və yerini başqa hər hansı bir ədəbi-mədəni və elmi mühitlə müqayisə etmək mümkün deyildir” (8, 3). Belə ki, Naxçıvanda maarifçilik Azərbaycanda maarifçilik hərəkatının təkanverici qüvvəsi olmuşdur. Milli teatrımızın inkişafında 1883-cü ildə yaradılan Naxçıvan teatrının müstəsna rolunu böyük simalar həmişə yüksək dəyərləndirmişlər. Bəllidir ki, elm, maarıf, teatr, mətbuat, ədəbi-mədəni əlaqələr baxımından Naxçıvandakı fəaliyyət Azərbaycanın digər bölgələrinə nisbətən daha güclü olmuşdur.

**Məqalə tarixçəsi:**
Göndərilib: 19.02.2019, qəbul edilib: 02.03.2019

Azərbaycanda ədəbi mühitlər öz zamanında və sonralar ədəbi-mədəni fikrin yüksəlməsinə səbəb olmuş, xalqın mənəvi inkişafına xidmət etmişdir. “Milli ədəbi-ictimai fikrin çoxəsrlik inkişafı Bakı-Şirvan, Təbriz-Ərdəbil, Gəncə-Qazax, Quba-Dərbənd, Naxçıvan-İrəvan ədəbi mühitlərinin xüsusi rolunun olduğu danılmazdır” (8, 3).

Naxçıvan qədim zamanlardan sözə həssas, sənətə dəyər verən və sənət yaradan yurd yerlərımizdən olmuşdur. Burada dövlətçiliık, sənətkarlıq və ədəbi ənənələrin tarixi uzaq dövrlərlə səsləşir. Bu qədim diyarın hələ orta əsrlərdən məşhur olan zəngin bir ədəbi-mədəni və elmi mühiti mövcuddur. Həmin mühit Kəmaləddin Naxçıvani, Nəsirəddin Tusi, Hinduşah Naxçıvani, Məhəmməd Naxçıvani, İzadəddin Naxçıvani, Əbubəkr ibn Xosrov, Əhməd əl-Nəsəbi, Həsən Naxçıvani, Fəxrəddin Naxçıvani, Abdulla Naxçıvani, Baba Nemətullah Naxçıvani, Mirzə Sadiq Ordubadi, Hətəm bəy Ordubadi, İbrahim Nəsiri, Heyran xanım Dünbüli, Əbdürrəzaq bəy Dünbüli, Kosacanlı Allah-verdi, Qönçəbəyim, Fəqir Ordubadi, Qüdsi Vənəndi və başqaları kimi onlarla tanınmış sima yetirmişdir. “Məhz bu ədəbi mühit Azərbaycan ədəbiyyatına Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Məhəmməd Şahtaxtlı, Məhəmməd Tağı Sidqi, Əliqulu Qəmküsar, Məmməd Araz, Hüseyn İbrahimov və başqaları kimi görkəmli şəxsiyyətlər bəxş etmişdir” (1, 3).

Azərbaycanda maarifçilik XIX əsrin hadisəsi kimi meydana çıxmışdır. Maarifçiliyin bir milli hərəkat və ya cərəyan kimi formalaşması keçən əsrin tarixi nailiyyətidir. Məhz bu tarixi nailiyyətdə adı ədəbiyyatımızın qızıl fonduna qırmızı xətlə düşmüş Cəlil Məmmədquluzadə bu mərhələnin ideya-təşkilati rəhbəri vəzifəsini həyata keçirmişdir. Mirzə Cəlil Azərbaycan ədəbi-ictimai fikrində maarifçilik hərəkatının yaradıcısı və fəal iştirakçısı kimi çıxış etmişdir. O, bu yolda tək olmamış, müasirləri ilə ictimai və ədəbi-mədəni mühitin dirçəlişində əsas rol oynamışlar. Cəlil Məmmədquluzadə və müasirləri ədəbi mühitdə maarifçiliyi müstəqil hərəkat səviyyəsinə qaldırmışlar.

Onun müasirlərindən biri olan Eynəlibəy Sultanov Naxçıvanda ilk dəfə qadın azadlığı, hüquq bərabərliyi məsələsini ortalığa ataraq “dövrünün görkəmli maarifpərvər ziyalısı, gəncliyi yeni ruhda tərbiyə edən ağıllı müəllim, vətənpərvər şəxs olmuşdur”. Naxçıvan teatrının əsasını qoyan Eynəlibəy Sultanovun həm təşəbbüsü, həm də rəhbərliyi ilə Naxçıvanda “Ziyalılar məclisi”, “Müsəlman incəsənət və dram cəmiyyəti” təşkil edilmişdir. Cəlil Məmmədquluzadə onun səsinə səs verən ilk sirdaşı kimi qiymətləndirilmişdir. “1883-cü ildə Cəlil Məmmədquluzadə və onun naxçıvanlı sindaşları (yaşıdları – N.Ə.) Qori Seminariyasında tələbə ikən Eynəlibəy təhsilini başa vurub, doğma şəhərinə qayıtmış, burada əvvəlki həyat tərzinin hökm sürdüyünü, ətalət və xurafatın həmyerlilərini əsrlərin mürgüsündə saxladığını görmüş və böyük həvəslə huşyar dostları Paşa ağa Sultanov, Mirzə Ələkbər Süleymanov, Qurbanəli Şərifov, Nəsrulla və Fərəculla Şeyxov qardaşları ilə birlikdə ilk mədəni tədbirlərin həyata keçməsində fəaliyyət göstərmişdir” (3, 29). Naxçıvan teatrının əsasını qoyan Eynəli bəy Sultanov 1892-ci ildə Əsəd ağa Kəngərli ilə birlikdə gizli mətbəə təşkil edir. Xalqı haqqında düşüncələrində bir sual onu həmişə düşündürmüşdür: “Mənim xalqım, səni azad insanlar içərisində azad,

xoşbəxtlər içərisində xoşbəxt, maarifçilər arasında maarifçi görə biləcəyəmmi?” (3, 33). Məlumdur ki, XIX əsrin sonlarında Naxçıvanda mədəniyyət, ədəbiyyat və maarifin sürətli yüksəlişi başlanmışdı. Eynəlibəy Sultanov həm də məharətli yazıçı olmuşdur. Onun satirik hekayələri Cəlil Məmmədquluzadənin satirik hekayələri ilə müqayisə olunur. Onların arasında üslub və məzmun yaxınlığı vardır. XIX əsrin sonunda jurnalistika sahəsində daha çox fəaliyyət göstərən Eynəlibəy Sultanov olmuşdur. “O, “Tərcüman”, “Каспи”, “Санкт-Петербургские ведомости”, “Кафказ”, “Новое обозрение” və s. qəzetlərdə “Eynəli”, “Ayn-Sin”, “Известны”, “Neştər”, “Dəli”, “Naməlum” və s. imzalarla publisistik məqalələr dərc etdirmişdir” (6, II, 263).

Eynəlibəy Sultanov Tiflis həyatı dövründə (1908-1935) həmin şəhərdə “Zuvalov adına Xalq Evi”nin yanında 1909-cu ildə Azərbaycan dram şöbəsinin açılmasında fəallıq göstərmiş və təşkilatın əsas təsisçisi kimi mühüm rol oynamışdır.

Mirzə Cəlilin digər müasiri olan Məhəmməd Tağı Sidqi milli maarifçilk hərəkatının aparıcı simalarından biri olmuşdur. Sidqi Ordubadda “Əxtər” və Naxçıvanda “Tərbiyə” məktəblərinin əsasını qoymuşdur. 1894-cü ildə Sidqini Naxçıvana dəvət edən ziyalı ədiblərimizdən birincisi Mirzə Cəlil olmuşdur . Mirzə Cəlil Sidqinin Naxçıvana gəlib burada dərs deməsi ilə bağlı maraqlı bir cümlə işlətmişdir: “Dəxi aşkardır ki, Naxçıvana Sidqinin məhz varid olmağı lazım imiş ki, çətin məsələlər kəşf olunsun, mətləblər zikr olunsun, söhbət qızışsın və neçə illərlə ürəklərdə olan arzular yerinə gəlsin”. Müasirləri olan ziyalılar maarifçi - şair - pedaqoqdan öyrənmiş, yeniyetmə gənclik sözün həqiqi mənasında böyük bir ustaddan dərs almışdır. Sidqinin coxcəhətli, yorulmaz fəaliyyətinin nəticəsində “Tərbiyə” məktəbində yeni tipli maarifçi nəsil ərsəyə çatmışdır. Sonralar milli elm, ədəbiyyat və incəsənətin inkişafında xüsusi xidmətləri ilə seçilən H.Cavid, Ə.Qəmküsar, Ə.Şərif, R.Təhmasib, Əli Səbri Qasımov və başqaları Sidqi məktəbinin yetirmələridir.

“Əncüməni-şüəra” ədəbi məclisinin ən fəal üzvlərindən və rəhbərlərindən olan Hacıağa Fəqir Ordubadi Mirzə Cəlilin müasiri olmaqla bərabər, yaratdığı lirik nümunələrlə XIX əsrin II yarısında Azərbaycan ədəbiyyatında klassik poeziya ənənələrini davam etdirmişdir. Hacıağa Fəqirin “Gülşəni-irfan” adlı əlyazma divanı qalmışdır. Şair ömrünün sonlarında həmin divanı tərtib edərkən gözləri kor idi və buna görə yaxın dostu M.T.Sidqi şeirləri öz dəstixətti iə köçürmüşdür. Fəqir Ordubadinin “Kürdün çul satması” şerini Cəlil Məmmədquluzadə və müasirləri də vaxtilə həmin satiranı əzbər öyrənmişlər. Mirzə Cəlil hətta həmin şeiri avazla ozxumuşdur. “Kürdün çul satması” mənzuməsi “Molla Nərəddin” jurnalında “Fatı” başlığı ilə dərc olunmuşdur. Bu satira barədə ilk dəfə Mirzə Cəlil mətbuatda ətraflı məlumat vermişdir.

Azad söz və azad fikri ən müqəddəs arzu hesab edən alim-yazıçı Qurbanəli Şərifzadə (1854-1917) Cəlil Məmmədquluzadənin dost və müasirlərindən biridir. “Q. Şərifzadəni o zaman N.Nərimanov, M.Ə.Sabir, Ə.Haqverdiyev, H.Cavid, F.Köçərli, M.T.Sidqi, S.Qənizadə və başqa görkəmli ziyalılar da eyni məhəbbətlə sevmişlər” (9, 81). F.Köçərli onun ölümünü “millət üçün böyük bir yas” hesab etmişdir.

Qurbanəli Şərifzadə maarifçi ziyalı, publisist, xeyriyyəçi olmuş, milli təhsil, mətbuat və mədəniyyətin inkişafında böyük xidmət göstərmişdir. Naxçıvanda məktəblərin və teatrın inkişafına həm mənəvi, həm də maddi baxımdan kömək etmişdir. “...Molla Nəsrəddin” jurnalı maddi böhran keçirdiyi zaman Cəlil Məmmədquluzadə, ilk növbədə, Q. Şərifzadədən kömək istəmiş, o da dəfələrlə jurnalı bağlanmaq təhlükəsindən qurtarmışdı” (9, 82). Məhəmməd Tağı Sidqi Qurbanəli Şərifzadə ilə birlikdə qəzet çıxarmaq istəmişdi, lakin buna nail ola bilməmişdi.

Cəlil Məmmədquluzadənin sözləri ilə desək, “huşyar naxçıvanlılardan” olan Mirzə Cəlil Şürbi Cəlil Məmmədquluzadənin müasirlərindəndir. O, maarif və teatr xadimlərindən biri, şair və tərcüməçi olmuşdur. Kefli İsgəndər obrazının prototiplərindən biri olan Mirzə Cəlil Şürbi, əsasən pedaqoq-yazıçı kimi fəaliyyət göstərmiş, “Molla Nəsrəddin” jurnalının Naxçıvan üzrə təmsilçisi kimi tanınmışdır. Bir sıra məktəblərdə (Aralıq, Nehrəm, Şahbuz) müəllim və 1903-1908-ci illərdə Vənənd ibtidai məktəbində, 1909-1913-cü illərdə Naxçıvan şəhər rus – tatar məktəbində müdir işləmişdir. O, Naxçıvan teatrında qadın rollarının ifaçısı olmuşdur.

Cəlil Məmmədquluzadənin müasirlərindən olan Paşa ağa Sultanov (Kəngərli) Paris Universitetinin hüquq şöbəsini bitirmiş, dövrünün poliqlot ziyalısı kimi (ərəb, fars, rus, alman, fransız dillərini bilmişdir) tanınmışdır. Bir neçə dil əsasında lüğət tərtib etmişdir. Həmin lüğəti elm aləminə professor Abbas Zamanov təqdim etmişdir. Naxçıvanın ədəbi-mədəni tədbirlərində fəal iştirak edən Cümşüd Paşa Cəlil Məmmədquluzadənin “Ölülər” tragikomediyasındakı Kefli İsgəndər obrazının prototiplərindən biridir. Məhəmməd Tağı Sidqinin Cümşüd Paşa Sultanov ilə lüğət tərtib etməsi haqqında məlumatlar vardır. Lakin həmin lüğət çap edilməmişdir. “Cəlil Məmmədquluzadə ensiklopediyası” və İbrahim Mollayevin əsərlərində bu haqda məlumat verilmişdir. Bundan başqa, Məhəmməd Tağı Sidqinin oğlu Məhəmmədəli Səfərovun atasının tərcümeyi-halına aid yazılarda həmin məsələ də əks olunmuşdur: “Naxçıvanda olan yurist Paşa ağa Sultanov ilə Azərbaycan, rus, fars, ərəb dilində bir lüğət yazmaq üstə illər ilə işləmişdir. Həmin yarımçıq qalmış lüğət Naxçıvanda Paşa ağanın oğlu Əliqulu ağa Sultanovdadır” (7, 270-271).

Məhəmməd ağa Şahtaxtlı Mirzə Cəlilin çox sevdiyi və dəyərləndirdiyi müasirlərindəndir. Avropa- Şərq mədəni əlaqələrinin yaxınlaşıb möhkəmlənməsində xüsusi yeri və rolu olan bu böyük şəxsiyyət Cəlil Məmmədquluzadənin jurnalistlik fəaliyyətinə köməklik göstərmiş, onu “qəzetə dünyası”na cəlb etmişdi. Məhəmməd ağa Şahtaxtlı Azərbaycanın Rusiya və Avropa miqyasına çıxardığı ən görkəmli jurnalist olmuşdur. Azərbaycan xalqının ictimai fikir tarixində parlaq bir səhifə təşkil edən bu ensiklopedik sima həm də fəlsəfi, pedaqoji fikir tariximizin korifeylərindən biridir. Səsi dünyanın bir çox ölkələrindən (Almaniya, Fransa, Rusiya, Türkiyə, İran, İraq) gələn Məhəmməd ağa Şahtaxtlı dilçi, publisist, ictimai-siyasi xadim olmaqdan başqa, tərcüməçilik sahəsində də fəaliyyət göstərmiş, “Quran”ı alman dilinə çevirmişdir.

Məşhur Fransa alimi Lüsyen Büva bütün mədəniyyət aləminin bu böyük şəxsiyyətə minnətdar olmasını zəruri saymışdır. Cəlil Məmmədquluzadə isə özünü Məhəmməd ağa Şahtaxtlının "qələm köməkçisi" adlandırmışdır.

Hacı Məhəmməd Naxçıvani (1881-1963). Cənubi Azərbaycanın tanınmış ziyalılarındandır. Şöhrətli ədəbiyyatşünas Məhəmmədəli Tərbiyətin nəslindən olan Hacı Məhəmməd Cəlil Məmmədquluzadənin həyatının Təbriz dövründə onun çox yaxın məsləkdaşlarından biri olmuşdur. 1921-ci ildə "Ölülər" tragikomediyası Təbrizdə tamaşaya qoyulanda xeyli köməklik göstərmişdir. Məhəmməd Tağı Sidqinin çağdaşlarından olan Böyükxan Naxçıvani 1871-ci ildə Naxçıvan şəhərində anadan olub. Onun ölüm tarixi bəlli deyil. Teatr xadimi olmuş, XX yüzilin əvvəlində Naxçıvan tetrında aktyorluq və rejissorluq etmişdir. ADR zamanında – 1919-cu ildə Naxçıvan tetrının Təbrizə qastrol səfərinin təşkil edilməsində böyük rol oynamış və orada xeyli uğur qazanmışdır. O, qastrol səfərindən sonra Cənubi Azərbaycanda yaşamışdır. Böyükxan Naxçıvani orada teatr işləri ilə məşğul olmuş, Təbriz teatrının əsasını qoymuşdur. "Molla Nəsrəddin" jurnalının Təbrizdə nəşr edildiyi dövrdə C.Məmmədquluzadənin yaxın məsləhətçilərindən olmuş, onun Ölülər" tragikomediyasının Təbriz tamaşasında Kefli İsgəndər rolunu oynamışdır" (6, II c., 176).

Cəlil Məmmədquluzadənin müasirlərindən və həmkarlarından biri də Mirzə Ələkbər Süleymanovdur (1862-1921). O, xalq müəllimi və teatr xadimi kimi tanınmış, bir müddət inspektor və nəzarətçi (müdir) vəzifələrində işləmişdir. Mirzə Ələkbər Süleymanov Cəlil Məmmədquluzadə və Məhəmməd Tağı Sidqi ilə birlikdə Naxçıvan teatrının formalaşması və inkişafında yaxından iştirak etmişdir. O, aktyorluq fəaliyyəti də göstərərək bir sıra yaddaqalan rollarda oynamışdır.

Əliqulu Qəmküsar "Molla Nəsrəddin" jurnalının ikinci redaktoru kimi fəaliyyət göstərmişdir. Əbdürrəhimbəy Haqverdiyev tərəfindən "Molla Nəsrəddin məcmuəsinin ürəyi" kimi qiymətləndirilmişdir. Bakı, İrəvan, Daşkənd, Həştərxan, Tiflis, Gəncə şəhərlərində "Ölülər" əsərinin tamaşasında fəal iştirak etmiş, Şeyx Nəsrullah rolunun dəyərli ifaçılarından biri kimi yadda qalmışdır. Məşhur aktyor Mirzağa Əliyev yazırdı: "Qəmküsar ruhaniləri hərtərəfli tanıdığı, onlara yaxşıca bələd olduğu üçün Şeyx Nəsrullah rolunu fövqəladə bir məharətlə oynayırdı. Əliqulu Qəmküsar həm səhnədə, həm yaradıcılığında, həm də həyatda ruhanilərin qənimi idi" (4, 48). Cəlil Məmmədquluzadə onun əsərlərini böyük M.Ə. Sabirin əsərləri ilə müqayisə etmiş, fikir açıqlığı və güclü tənqid baxımından Əliqulu Qəmküsarın irəli getdiyini söyləmişdir.

Cəlil Məmmədquluzadə ilə hələ məktəbli ikən tanışlıq əldə edən Əbdürrəhimbəy Haqverdiyev 1906-cı ilin noyabr ayında Qarabağdan Tiflisə gedib məcmuənin redaktoru ilə görüşmüş, 1907-ci ildən isə "Molla Nəsrəddin"lə rəsmi əməkdaşlığa başlamışdır. Bir maraqlı fakt budur ki, Mirzə Cəlil Ə.Haqverdiyevin "Millət dostları" hekayəsini ayrıca kitab halında nəşr etdirib göndərməsi Mirzə Cəlilin Haqverdiyevi əsl mollanəsrəddinçi yazıçı hesab etdiyini göstərir.

Mirzə Cəlilin maarifçi və mollanəsrəddinçi müasirləri yazıçının məsləkdaşları, silahdaşlı, ideya və əməl dostlarından ibarət böyük, mətin bir ədəbi ordudur. C.Məmmədquluzadə həmin ordunun baş qərargah rəisi nüfuzunu

qazansa da, onun həyatı, yaradıcılığı və mübarizəsini müasirlərindən kənarda təsəvvür etmək mümkün deyildir.

Cəlil Məmmədquluzadə XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı, mətbuatı və ictimai fikrinin ağsaqqalıdır. Fikrimizcə, böyük müasirlik və millilik imkanlarına malik olan zəngin yaradıcılığı ilə seçilən Cəlil Məmmədquluzadə bu gün də, müstəqillik dövründə də Azərbaycan ədəbiyyatı və mətbuatına ağsaqqallıq edir. Həyatını milli oyanış və dirçəlişə, Azərbaycan xalqının azadlığına və müstəqilliyinə həsr etmiş Cəlil Məmmədquluzadə milli istiqlal ədəbiyyatının sərkərdəsidir.

## ƏDƏBİYYAT

1. Axundov Y.İ. Məmməd Səid Ordubadi. Bakı: Sabah, 1997, 352 s.
2. Axundov A., Vəliyev S. Naxçıvan ədəbi mühiti. Bakı: Nurlan, 2008, 216 s.
3. Cəlil Məmmədquluzadə ensiklopediyası. Bakı: Şərq-Qərb, 2008, 318 s.
4. Cəlil Məmmədquluzadə və onun naxçıvanlı müasirləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1967, 90 s.
5. Məmmədov İ. Əliqulu Qəmküsar / Cəlil Məmmədquluzadənin naxçıvanlı müasirləri. Bakı, Azərnəşr, 1967, s. 43-55.
6. Naxçıvan ensiklopediyası, I-II c. Naxçıvan: Naxçıvan ensiklopediyası, 2005, I c, 356 s, II c.,376 s.
7. Sidqi M.T. Əsərləri (toplayanı, tərtib edəni və müqəddimənin müəllifi İ.Ə.Həbibbəyli). Bakı: Çaşıoğlu, 2004, 279 s.
8. Həbibbəyli İ.Ə. Qiymətli mənbə, etibarlı bələdçi / Axundov A., Vəliyev S. Naxçıvan ədəbi mühiti. Bakı: Nurlan, 2008, s. 3-6.
9. Zamanov A. Qurbanəli Şərifzadə / Cəlil Məmmədquluzadənin naxçıvanlı müasirləri. Bakı, Azərnəşr, 1967, s. 80-83.

## РЕЗЮМЕ

**НУРЛАНА АЛИЕВА**

## ДЖАЛИЛ МАМЕДГУЛУЗАДЕ И ЕГО НАХЧЫВАНСКИЕ СОВРЕММЕНИКИ

В формировании мировоззрения каждого мастера исключительное значение имеет литературная среда и современники. В статье говорится о современниках великого литератора Джалила Мамедкулузаде и с каждом из них даны факты и сведения. Отмечено, что в Азербайджанской литературе и исскустве Джалил Мамедкулузаде и его современники выступали как активные создатели и творители национально - просвещенческого движения. На этом пути он был не одинок, вместе с современниками выполнял основную роль в возрождении общественной и литературно - культурной среды. Джалил Мамедкулузаде и его современники подняли просвешение на самостоятельный уровень в литературной среде. Таким образом в статье обсуждается вопрсы о роли Мирза Джалила и его современников в нашей литературе и культуре.

**Ключевые слова:** литератор, современник, среда, просвещенчество, театр, трагикомедия, сборник

**SUMMARY**

**NURLANA ALIYEVA**

**JALIL MAMMADGIZADE AND NAKHCHIVAN CONTEMPORARIES**

The literary environment and contemporary has a special, exceptional importance in the formation of the artisit's outlook. In the article deals with great writer Jalil Mammadguluzadeh and his contemporaries and were given facts and information about each of them. It was noted that, J.Mammadguluzadeh and his contemporaries acted as creators and active participiants of the national enlightenment movement in the literature and culture of Azerbaijan. He hasn't been alone on this path, they namely, with his contemporaries has played imporatant role in the revival of the social and literary-cultural environment. J.Mammadguluzadeh and his contemporaries raised the enlightenment to the level of independent movement. The written article deals with Mirza Jalil's contemporaries and their role in our literature and culture.

**Key words:** writer, contemporary, environment, enlightenment, theater, tragicomedy, collection

*(Akademik Əbülfəz Amanoğlu Quliyev tərəfindən təqdim edilmişdir)*